# Gəncə XII-XIII əsrlərdə



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

***Böyük Səlcuq İmperiyasının (1037-1157) ayrı-ayrı parçalanmış hissələrini əvvəlcə səlcuq nəslindən olan müxtəlif nümayəndələr idarə etməyə başladılar.Səlcuqlu sultanları bir şahzadəni bir əyalətə vali göndərəndə,onunla birlikdə oğuz bəylərindən bir atabəy də göndərirdilər.Atabəylər bu şahzadələrin dövlət adamı və komandan olmasına çalışırdılar.Lakin tabeliklərində olan ölkələri idarə edə bilmədiklərindən şahzadələr bu işi öz yerli vassallarına atabəylərə tapşırdılar ki,bunlar da tezliklə ayrılıb sərbəst hökmranlığa başladılar.Atabəylər Səlcuq imperatorluğu dağılandan sonra kiçik dövlətlər qurdular. Bunlardan ən mühümləri Fars,Azərbaycan, Suriya və İraq atabəyləri idi.Azərbaycan atabəyləri də bu qəbildən olan hökmdarlar idi.Sultan Məsud (1133-1151)Eldəgizi öz qoşunlarının bir hissəsi ilə Arana göndərdi və o,qısa bir müddət ərzində bütün Aranı,Gəncəni,Şirvanı,Bakını tutub qoşunla və rəiyyəti ilə elə münasibət yaratdı ki,hamıda ona qarşı məhəbbət oyandı.***

Birinci üç Eldəgizlər Şəmsəddin Eldəgiz (1136-1175),Məhəmməd Cahan Pəhləvan (1175-1186) və Qızıl Arslan (1186-1191) həm Azərbaycanı idarə edirdilər,həm də İraq-səlcuq səltənətində rəhbər mövqedə idilər.

Atabəylər tabeliklərində olan ayrı-ayrı şəhərlərə hakimi özləri təyin edirdilər.Məsələn,atabəy Eldəgiz Gəncəyə gələrkən şəhəri və onun ətrafını hücum edə biləcək düşməndən qorumaq üçün bir adam təyin etdi (adı məlum deyil).Özbəyin vaxtında isə Gəncənin hakimi mənbəyə görə Quşxara-"Özbəyin qulu"-olmuşdur.

Azərbaycan atabəyləri öz adlarına pul buraxırdılar.Qazıntı işləri zamanı belə pullar tapılmışdır.

Azərbaycan atabəylərinin paytaxtı Təbriz idi.Amma ən sevimli yerləri Gəncə idi ki,burada da özlərinin sarayları vardı.Hətta belə bir məlumat da vardır ki,atabəy Qızıl Arslan Gəncəyə öz adını qoymuşdu.

XII-XIII əsrlərdə Gəncə nəzərə çarpacaq dərəcədə böyüdü və Zaqafqaziyanın ticarət-sənətkarlıq cəhətdən əhəmiyyətli şəhərlərindən birinə çevrildi.O,həm də Azərbaycanın iri mədəni və siyasi mərkəzi idi.Şərq şairləri Gəncəni vəsf edir,onu o vaxtın ən mədəni,zəngin şəhərləri ilə müqayisə edirdilər.

***Həmdullah Qəzvini yazırdı ki,Aranda Gəncə dolu bir xəzinə idi,necə ki,İraqda-İsfahan,Xorasanda-Mərv və Tus,Rumda-Ağsaray idi.***

***Artıq XI əsrdə Gəncə möhkəmləndirilmiş orta əsr şəhəri idi.Onun ətrafında qəsəbələr əmələ gəlirdi ki,buraya çoxlu sənətkarlar axışırdı.Bu qəsəbələr şəhərə birləşərək möhkəm qala divarları yaradırdılar.Şəhəri Gəncə çayı bölürdü.Bu çayın üzərində kərpicdən-daşdan körpülər salınmışdı.Gəncə-çayı qurumuş yatağında indi də o üç körpünün qalıqlarını görmək olar.Bu körpülər çox əsrlər bundan qabaq Gəncənin həyatında böyük rol oynamışdı.Şəhəri aralarında az məsafə olan,hündür,güclü qülləli,qalınlığı bir metrdən çox olan iki qala divarı əhatə edirdi.Divarların arasında tapılan dəmir qırıntıları şüşə çilikləri sübut edir ki,burada sənətkarların məhəlləsi,emalatxanaları yerləşib.Axırıncı arxeoloji qazıntılar və tədqiqatlar göstərir ki,bu divarlar müxtəlif vaxtlarda ucaldılmışdır:vaxt hələ dəqiqləşdirilməyib.***

Şəhərciyin topoqrafik şəklində hələ üçüncü qala divarlarının da izləri görünür ki,bu da şəhərciyin müəyyən hissəsini tutur.Əlbəttə,bütün bu divarlar müxtəlif vaxtlarda,şəhərin məhəllələrinin böyüməsi ilə əlaqədar tikilmişdir.

Gəncənin yaşayış binaları və qala divarları üçün tikinti materialı əsasən bişmiş və çiy kərpicdən,çayın gətirdiyi daşlardan ibarət idi.Daşla və kərpiclə bəzəkli tikilmiş,arası gəclə bərkidilmiş hörgü əsrlərə dayanmışdır-indi də Gəncədə belə nümunələrə rast gəlmək olar.

Qala divarları içərisində,yazılı mənbələrə görə hökmdarların gözəl sarayları,varlıların evləri,tranzit tacirlər üçün karvansaraylar,mədrəsələr,hamamlar və sairə ictimai və mədəni əhəmiyyətli olan binalar,həm də sənətkarların və şəhər kasıblarının xırda,sadə evləri yerləşirdi.Şumluq torpaqlar,üzümlüklər,meyvə və tut bağları isə görünür divarların çöl tərəfində olub.




Köhnə Gəncənin ətraflarında bizim günlərə qədər bir yadigar qalıb-Nizaminin məqbərəsi.O,Gəncənin keçən köhnə karvan yolunun kənarında yerləşirdi.Qazıntı işləri təsdiq edir ki,XIII əsrə aid olan məqbərənin qalıqları yerin altındadır.Yerin üstündəki hissə isə sonradan bərpa olunmuş (1925-ci ilə qədər saxlanılmışdı) hissədir.

Köhnə Gəncədə başqa iki məqbərə də saxlanılıb: "Göy İmam" və "Comərd-qəssab"."Göy-İmam" köhnə Gəncənin qalıqlarından şimalda yerləşir.1878-ci ildəki bərpa yazısı onu 737-738-ci illərə aid edir.Orada deyilir ki, "Bu müqəddəs məqbərə bizim imam Mühəmməd Bağırın oğlu cənab İbrahimin qəbridir,Allah ona rəhmət eləsin!O,hicri ilə 120-ci ildə rəhmətə gedib,Qəbri nurla dolsun!Mayor rütbəli İsrafil bəy Yadigarzadə Tiflisski isə qəbri düzəltməyi əmr etdi. Bu 1296-cı ildə,yəni 1878-ci ildə olmuşdur".

Şəhərin sağ sahilindəki cənub divarından bir kilometr aralıda kərpic məqbərə-"Comərd-qəssab" məqbərəsi yerləşir.Mənbələrə görə bu məqbərə bir qəssabın şərəfinə ucaldılmışdır:o,şəhəri yaddelli işğalçılardan qoruyarkən həlak olmuşdur.Xalq əfsanəsi kimi bu,IX əsrə aiddir.

Azərbaycanın XI-XIII əsrlərdə zəngin arxitektura inciləri olmuşdur.Gəncə də bu baxımdan zəngin olub,təbii fəlakətlərə məruz qaldığından onların çoxu bizim günlərə gəlib çatmamışdır.Onları xatirə kimi yada salan yazılı mənbələr və arxeoloji qazıntıların nəticələridir.

Bu dövrdə Gəncənin iqtisadi strukturunu əsasən sənət,ticarət,bağçılıq və əkinçilik təşkil etmişdir.

XII-XIII əsrlərdə Gəncə Azərbaycanda mədəniyyət mərkəzi kimi məşhur olmuşdu.Bu əsrlərdə Gəncə Azərbaycan xalq incəsənət və yaradıcılığının yüksək nümunələrini verirdi.O dövrün məşhur elm xadimləri və dünya ədəbiyyatında özünəməxsus yer tutmuş şairlər Azərbaycana da məxsus idi.Dornun verdiyi məlumata görə Məlik Mənuçöhr Şirvan hökmdarlarının ən parlaq təcəssümü idi.O,şairlərə,tanınmış adamlara çox hörmət edirdi.Şirvanda həmin dövrdə çoxlu məşhur şairlər toplaşmışdı.

Səlcuqlular,Şirvanşahlardan başqa Azərbaycan Atabəyləri-Eldəgizləri (1136-1225) də şairləri və alimləri yüksək qiymətləndirirdilər.

Eldəgiz Qızıl Arslanın sarayında o dövrün böyük şairlərindən Mücir-əd-dini Beyləqaninin yaşaması buna gözəl misal ola bilər.

Mədəni cəhətcə Gəncə Azərbaycanın başqa şəhərləri arasında xüsusi yerdə dururdu. Hələ X əsr ərəb coğrafiyaşünasları qeyd edirdilər ki,gəncəlilər xaricilərə və alimlərə çox sevirlər.

***XII əsrdə Gəncə bir çox Azərbaycan şairlərinin və alimlərinin vətəni olmuşdur.Yaqut (XIII əsr) yazırdı ki,buradan (Gəncədən) çoxlu elm adamı çıxmışdı.***

***Bir çox gəncəlilər şərq mədəniyyətinin o vaxtkı mərkəzi olan Bağdada gedir, orada mədrəsə-akademiyada təhsil alırdılar.Bu mədrəsənin əsasını Nizam-əl-mülk (Sultan Məlik şahın baş vəziri) qoymuşdu,adı da 'Nizamiyyə'idi.Bəziləri o vaxtın elmlərinə yiyələnib vətənə qayıdır,digərləri isə müxtəlif şəhər və ölkələrə gedirdilər.Bunlara "əl-Cənzi" yəni "gəncəli" deyirdilər.Onlar əsasən dini elmlərlə şöhrətlənirdilər,ən yaxşı hədis oxucuları sayılırdılar.Ən məşhurları,Yaquta görə Hacı Ömər ibn Osman ibn Şüeyb-əl-Cənzi,Əbu-əl-fəzl ibn Əli ibn İbrahim əl-Cənzi və sairə idilər.***

XII əsr şairlərinin başçısı sayılan,gəncəli Nizam-əd-din Əbu-əl-əala yazırdı ki, Gəncənin öyünməyə haqqı vardı.

Səlcuq Əhməd Səncərin (1118-1157) sarayında yaşayıb yaratmış məşhur Azərbaycan şairəsi Məhsəti də gəncəli idi.O,poeziyada olan ələ zövqünə görə seçilirdi.Məhsəti çox istedadlı şairə idi.Tədqiqatçıların fikrincə onun "rübailəri" realizmlə dolu idi.

Həmin dövrün tanınmış şairlərindən biri də Gəncədən olan Tacid-əd-din Əhməd ibn Qatib idi.O,Məhsətinin müasiri idi,öz şeirlərinin bir çoxunu ona həsr eləmişdi.O,Məhsətini "Məh" böyük,"səti"xanım adlandırırdı.

***Şirvanşah IIMənuçöhrün ibn Fəribürzun (1096-1106) sarayında şairlərin başçısı Nizam-əd-din Əbu-əl-əlla Gəncəvi idi. O, 'Ustad-əş-şüara'-yəni şairlərin başçısı adı ilə məşhur idi.O,böyük bir ədəbiyyat məktəbi yaratmışdır.Tanınmış Azərbaycan şairləri Xaqani və Fələki də onun yetirmələri idi.Əfsus ki,öz əsərləri bizə gəlib çatmamışdır.Yalnız ayrı-ayrı parçaları müxtəlif mənbələrdə tapmaq mümkün olur.Gəncədən Qivami Mütərrizi də böyük saray şairlərindən biri idi.Lakin XII əsr şairlərinin hamısından da yüksəkdə əsil adı Nizam-əd-din Müəyyəd-əbu-Mühəmməd bin İlyas binYusif bin Zəki olan Nizami Gəncəvi idi.Nizami yüksək poetik qabiliyyətə malik idi,həmçinin fəlsəfə və astronomiya sahəsində də dərin biliyi vardı.Onun əsərləri ('İsgəndəmamə'və sairə) şairin klassik fəlsəfə və ədəbiyyatla yaxından tanış olduğunu göstərir.Zəkəriyyə Qəzvini yazırdı ki,Nizami məşhur şair idi,gözəl alim və mütəfəkkir idi.Öz sənətində tayı bərabəri yox idi.***

Bertels deyirdi ki,Gəncədə alim az deyil və təhsil almaq üçün onların kifayət qədər imkanları var idi.Nizami də Gəncədə təhsil almış,yaşamış və vəfatından sonra da orada dəfn olunmuşdur.

Nizaminin qəbri indiyə qədər də gəncəlilərin ən müqəddəs yerlərindən biridir.Qazıntı zamanı aydınlaşmışdır ki, məqbərənin bir neçə özülü olmuşdur,görünür əhali onu dəfələrlə bərpa etmişdir.

Nizami dünya ədəbiyyatı xəzinəsinə beş iri əsər vermişdir. "Sirlər xəzinəsi", "Xosrov və Şirin","Leyli və Məcnun","Yeddi gözəl" və "İsgəndərnamə" əsərləri "Xəmsə"-dətoplanmışdır ("Xəmsə"-"Beşlik").Nizaminin poemaları o dövrün romantik eposunun yüksək zirvəsidir.Onlar sonrakı dövr şairləri üçün nümunə olmuşdur.Nizami qələminə həmçinin lirik şeirlər toplusu məxsusdur.

Nizami saray şairi Qivami Mütərrizinin yolu ilə getməmiş, bu şərəfdən imtina etmişdi.

## 1139-cu ilin Gəncə zəlzələsi

Gəncə özünün çiçəkləndiyi bir dövrdə təbii fəlakətə zəlzələyə düçar oldu.XII əsrin birinci yarısı üçün bu zəlzələ şəhərin böyük faciəsi idi.Mənbələrə görə 1139-cu ilin payızında Azərbaycanın bir çox yerlərində zəlzələ olmuşdu,lakin bu fəlakət Gəncəni xüsusilə tutmuşdu.Heç bir mənbə bu faciənin üstündən sükutla keçməmişdir.

1139-cu ilin 25 sentyabr zəlzələsi Gəncə şəhərini dağıtdı.Ayrı-ayrı mənbələrdə bu hadisə daha geniş təsvir olunur.O dövrün tarixçiləri mənbələrində göstərirlər ki,Gəncədə baş verən zəlzələ bütün dünyanı lərzəyə gətirdi.Həmin hadisə belə təsvir olunurdu ki,duman və buludlar dağları,düzənləri tutmuşdu.O dəhşətli zəlzələ paytaxt gəncəni dağıtdı.Kəpəz dağı parçalanıb dağıldı,oradan axan çaya töküldü və göl əmələ gəldi (bu,indiki Göy –göldür).Bu göldə çoxlu qiymətli balıq növləri vardı.İsfahaninin verdiyi məlumata görə zəlzələ nəticəsində şəhərin qala divarları çatladı,çoxlu ev dağıldı.İbn-əl-asirə görə zəlzələ feodal Muştadid-əd-din Bəhruzuya məxsus olan qalanı da dağıtmışdı.

Dağıdılmış evlərin xarabaları altında çoxlu adam tələf olmuşdu.İsfahani və ibn-əl Asir qurbanların sayını 230 mindən 300 minə qədər göstərirlər.

Ərəb tarixçisi ibn-əl-Cəuzi (XII-XIII əsrlər) əlavə olaraq yazır ki,Gəncə tacirləri ticarətdən qayıdıb əzizlərini və var-dövlətlərini ağlamaq üçün qəbiristanlığa gedirdilər.

Lakin gəncəlilərin bərpa üçün hələ imkanları var idi. Zəlzələdən sonra Gəncə əvvəlkindən xeyli gözəlləşdi.Tarixçilər göstərir ki,sonrakı Gəncə təzə yerdə tikildi,çünki köhnə şəhər viranə qalmışdı.

***Şəhər tikildikcə yeni sahələrlə genişlənirdi,lakin əsas etibarı ilə köhnə sahəsində qalırdı.Öz qaydasına düşən şəhər bütün ölkə ilə bərabər iqtisadi,mədəni və siyasi cəhətcə inkişaf eləməyə və möhkəmlənməyə başladı.XII-XIII əsrlər Gəncənin inkişaf tarixində ən parlaq səhifədir.***

***Gəncəyə aid olan hadisələrdən birini,Gürcüstandan qovulmuş,çariça Tamaranın birinci əri,rus knyazı Andrey Bolqolyubskinin oğlu Georginin (1187-1192) Gəncə ətrafına gəlib Azərbaycan atabəyi, eldəgiz Nüsrəddin Əbu Bəkr (1191-1210)onu müdafiə edərək Aranda ona torpaq verdi.Georgi Aran əhalisindən özünə ordu düzəldib Gürcüstana hücum etdi.Amma Georginin Gürcüstana qayıtmaq təşəbbüsü uğursuzluqla nəticələndi.***